**AZƏRBAYCAN RESPUBLİKASI**
**DÖVLƏT STATİSTİKA KOMİTƏSİNİN APELLYASİYA ŞURASI**

# QƏRAR

**№ 14**

**Bakı şəhəri** **18 oktyabr 2022-ci il**

Apellyasiya Şurası Dövlət Statıstika Komitəsi sədrinin birinci müavini - Apellyasiya Şurasının sədri Vahab Feyruz oğlu Məmmədovun sədrliyi ilə Adil Əli oğlu Məmmədovun Sabirabad Rayon Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il sentyabr ayının 19-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsinə dair şikayətinə baxaraq müəyyən etdi:

Namizəd Məmmədov Adil Əli oğlu Sabirabad Rayon Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzi tərəfindən 2022-ci il aprel ayının 21-də elan edilmiş müsabiqənin müsahibə mərhələsində iştirak etmişdir. Müsahibə 2022-ci il sentyabr ayının 19-da Dövlət Statistika Komitəsinin Kənd təsərrüfatı statistikası şöbəsinin müdiri Gündüz Məmmədov, Dövlət İmtahan Mərkəzinin nümayəndəsi Rəşad Kazımlı və müstəqil ekspert Faiq Əhmədovdan ibarət komissiya tərəfindən keçirilmişdir. Məmmədov Adil Əli oğluna müsahibə komissiyasının üzvlərindən R.Kazımlı və F.Əhmədov 15 bal, G.Məmmədov 14 bal vermiş və nəticədə iştirakçı 14,7 bal toplayaraq müvəffəqiyyət qazana bilməmişdir.

Müsahibənin nəticəsindən narazı qalan namizəd "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 29-1-ci maddəsinə və "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 29 dekabr tarixli 435 nömrəli Fərmanının 3.23-1.1-ci yarımbəndinə əsasən Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasına 27.09.2022-ci il tarixdə şikayət ərizəsi ilə müraciət etmişdir.

Apellyasiya Şurasının iclasında aparılmış müzakirələrə əsasən namizədin vəzifəyə uyğun hesab edilmədiyi müəyyən edilmişdir.

Yuxarıda göstərilənlər və Apellyasiya Şurası üzvlərinin müzakirələrdən sonra gəldiyi yekun nəticə nəzərə alınaraq Dövlət Statistika Komitəsinin Apellyasiya Şurası **qərara aldı**:

1. Məmmədov Adil Əli oğlunun 27 sentyabr 2022-ci il tarixli apellyasiya şikayəti təmin edilməsin və Sabirabad Rayon Statistika İdarəsinin baş məsləhətçi vəzifəsinin tutulması üçün 2022-ci il sentyabr ayının 19-da keçirilən müsabiqə üzrə müsahibənin nəticəsi qüvvədə saxlanılsın.
2. S.Süleymanova Dövlət Statistika Komitəsinin Apellyasiya Şurasının qərarı qəbul edildiyi gündən onun surətinin üç gün müddətində Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinə və şikayətçiyə təqdim edilməsini təmin etsin.

**Sədr** **Vahab Məmmədov**

Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi
SƏNƏDLƏR ÜÇÜN

Əsli ilə düzdür: